# TÜRKAY

aylıq ədəbiyyat dərgisi



Dekabr 2024 il 2 say 24

## BU SAYIMIZDA

Lutviyyə Əsgərzadə / Əziz Qadınlar! / 3
Meryem Küçük / Güneşe Çiçek Açıyorduk / 4
Narıngül Nadir / Vağzal / 5
Leyla Şah / Sənsizliyin Dadı / 6
Gülay Sormageç / Gözlerim Islak / 7
Banu Musayeva / Şeir Pərisi / 8
Aysel Xanlarqızı Səfərli / İnsan Adlı Oyuncağam / 9
Əzizə Ağahüseynqızı / Bir Misra Söz / 10
İnci Okumuş / Geceye Şiir Fısılda Kalbim / 11
Bənövşə Mahmudqızı / Zamanım Var / 12
Arzu Nehrəmli / Yol Ayrıcı / 13
Beyhan Gözükara / Döndüm Deliye / 14
Vüsalə Vətənxan Mehri / Getdin / 15
Sevinç Qəmberli / "Çılpaq və yalnız" yaxud "Göy Adamı ilə Mükalimə" / 16
Adilə Nəzər / Elə Bir Güzgü ki / 18
Səidə Əliyeva / Muğam Sehrində / 19
Nazira Boymurodova / Güler Yaşarım! / 20
Zemfira Məhərrəmli / Yuxunu Suya Danış / 21
Nazile Gültac / Suya Yazılan Sevda / 23
Nəzakət Məmmədli / Şəhid Anası / 24
2. Yıl Fihristi / 25

**TÜRKAY**
aylıq ədəbiyyat dərgisi
Baş Redaktor Lütviyyə Əsgərzadə
Məsul Katib Meryem Küçük
Üz Qabıqı Şekli Türkay Səfərzadə
E mail dergiturkay@gmail.com
Dekabr 2024 il 2 say 24

Lutviyyə Əsgərzadə

# Əziz Qadınlar!

Tədqiqatçısı olduğum Hüseyn Cavid əfəndi yazır: “Qadın gülərsə şu issız mühitimiz güləcək / Sürüklənən bəşəriyyət qadınla yüksələcək!”

İki il öncə hörmətli Tayyib Atmacanın öndərliyi ilə sizlərlə birlikdə bir yola çıxdıq. “Türkay” adlı Ədəbiyyat dərgisi həyata vəsiqə aldı. Türkay dərgisi Balkanlardan Qafqazlara, Rusiyadan Cənubi Azərbaycana Türk dünyası qadınlarını bir yelpaze altında birləşdirdi. Yazılarımızı, şeirlərimizi, oxuduq, onların vasitəsi ilə bir-birimizlə tanış olduq. İki illik zaman kəsimində dərgimizin, sonuncu da daxil olmaqla, 24 sayı yayınlandı. Bu o qədər də asan iş deyil.

Hər şeyin ilki olduğu kimi, sonu da var. Könül istərdi ki, bu yolçuluq uzun illər davam etsin. Galiba biz də yolun sonuna gəldik.

Bu “Türkay” aylıq Ədəbiyyat dərgisinin sonuncu sayıdır. İki il boyunca dərgimizə göstərdiyiniz diqqətə görə, Sizə və Məryəm Kiçik xanıma təşəkkür edirəm. Sizinlə vidalaşırıq, amma dərgi vasitəsi ilə qurulan dostluqlarımız davam edəcək. Haqqınızı halal edin!

Dərgimizin sonuncu sayı və ilin son ayı. Bu ay təqvimdə iki qeyd edəcəyimiz gün var, 31 dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi günü və ilin son günü. Bizim tabirimizcə desək, Yeni il bayramı.

Hamınızı qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəyliyi günü və Yeni İl münasibətilə ürəkdən təbrik edirəm. Bir olaq, birlik olaq! Qoy yeni il, 2025-ci il bütün bəşəriyyətə və ölkəmizə sülh, xoşbəxtlik, gözəl, sevincli, bərəkətli, uğulu günlər gətirsin. Hər şey ürəyinizcə olsun!

Müharibələrin, kədərlərin və fəlakətlərin gətirdiyi ağrılar 2024-cü ildə qalsın!

Tanrı Türkü qorusun və ucaltsın! Neçə-neçə uğurlu illərə!

Əziz qadınlar, Siz çox dəyərlisiniz. Siz cəmiyyətin dayağısınız. “Ağıllı bir qadın xəzinədir. Gözəl və ağıllı bir qadın gücdür”

(George Meredith). Almanlarda belə bir deyim var: “Siz bizə ismətli və ağıllı analar verin, biz sizə gələcəyi.” Gələcəyimiz Sizin qucağınızda böyüyür. “Dünyada gördüyümüz hər şey qadının əsəridir” (Mustafa Kamal Atatürk)

Mustafa Kemal Atatürkün görmək istədiyi yerdə qərar tutun: “Ey kahraman Türk kadını! Sen yerde sürünmeye değil, omuzlar üzerinde göklere yükselmeye layıksın!”

## Meryem Küçük

# Güneşe Çiçek Açıyorduk

Bir haykırışla bir duruşla
Çıplak mutluluklarla
Yolun bahanesiyle yola vurulmuşken
Seni tanımadan ölme korkusuyla
Bu hücre benim
Sırtımda taşıdım taşlardan

Renklerini barış için taşırken
Öldü çocuklar üstünü kapattılar
Kızıl yara ağızdan,
son öpücük son tebessüm
Ağır kederler doldururken
Hüzne kapılıyor şehrin sokakları
Gerçek rüyadan ayrılırken
Ruhun zindanlarının,
kapı halkasını ağır ağır çalarken
Tartılardan geçerken tüm paylar
Yok oluşları taşırken,
uçurum uçurum heybende
Taşın keskinliğinde uykuya dalarken
Menekşe kokusunda sabahladık
İki renkli yapraklarında
güneşe çiçek açıyorduk ay çiçeği mevsiminde
Ey kokuyu gönderen bırakmam seni
Şiirin zarafetiyle yön veriyorsun
Kaderle aşka ve sabra koşarken

## Narıngül Nadir

# Vağzal

Şəhər çoxdan yatıbdı
Təkcə vağzaldır oyaq
Bir gün ölsə şəhəri
Bu vağzal ağlayacaq.

Hey dolur, hey boşalır,
Həmişə basırıqdır,
Burda bircə fəsil var,
O da ki, ayrılıqdır.

Uçmaq həvəsindədir,
Havalanmış adamlar.
Quş kimi dimdiyinə,
Alıb gedir qatarlar.

Bu vağzalda qocalıb
Bufetçi Qafar kişi.
Perik düşmüş Marusya
Bu vağzalın keçmişi.

Bir yanda bilyard zalı,
Bir tərəfdə gözləmə.
Divarda əyri yazı
"Nəzrin, məni gözləmə"

Ötürür, qarşılayır,
Dopdolu hekayədir.
Bu vağzal getmək üçün
Sonuncu bəhanədir.

Hərə bir səmtə gedir
Tək vağzal səbirlidir.
Bir yol çıxıb gedəmmir
Bu vağzal lap dəlidir.

Yel qanadlı qatarlar
Təkcə onu aparmır
Bəlkə çoxdan gedərdi
Bu şəhərdən qopammır.

## Leyla Şah

# Sənsizliyin Dadı

Sənsizliyin dadı…
Dözülməz bir ağrıdır o.
İşıq yoxdur, qaranlıqdır.
Küləklər də sazaqlıdır.
Çox acıdır…
Sənsizliyin dadı…
Əlacsız bir dərd kimidir,
Daldalanmış ər kimidir.
Tapdalanmış mərd kimidir.
Sənsizliyin dadı…
Bütün naləm, ah-fəryadım,
Dərdlə açılan sabahım.
Bu dərdi mən necə yazım?
Sənsən ən böyük günahım.

## Gülay Sormageç

# Gözlerim Islak

Doğup, büyüdüğüm toprak
Hatıralar tozlu yaprak
Zihnim oynaş, deli kısrak
Yüreğim kor çırılçıplak
Bugünse gözlerim ıslak
Otuz yıldır babasızdım
Gedik idim yamasızdım
Bir gariptim sılasızdım
Yüreğim kor çırılçıplak
Hüzünlü gözlerim ıslak
Baba ocağımdı sönen
Kader mi acep ters dönen?
Ayrılık bağrımı döven
Yüreğim kor çırılçıplak
Zarım var, gözlerim ıslak
Babamın bir kabri vardı
Anacığım ona yardı
Yurdum, yuvam bana dardı
Yüreğim kor çırılçıplak
Sızım var, gözlerim ıslak
Anam sardı, sarmaladı
Derdi, gamı bohçaladı
Gül derdi, gül koklamadı
Yüreğim kor çırılçıplak
Onsuz hep gözlerim ıslak
Anam sesin nerelerde?
Kızın geldi buralarda,
Ruhun şen mi oralarda?
Yüreğim kor çırılçıplak
Sensiz bak gözlerim ıslak!

**Banu Musayeva**

## Şeir Pərisi

Şeir pərisi...
Şeir pərim, can sirdaşım,
Günəş olum qürub çağı,
Saçlarını sığallayım, öpüm gəlim..
Ulduz olum, gecə sənə qonaq gəlim.
Mən ay olum, yollarına nur çiləyim,
Ölməsin son ümidlərim...
Pıçıldayım qulağına sirrlərimği,
Həm acılı,həm şirinli günlərimi,
Ümid dolu bu gecədə qonağınam,
Gəl danışaq şeiriyyatdan,
Nəğmə dolun rübabımı kökləyim mən...
Sən udu çal, dinləyib mən...
Udunu çal, ud səsinə qoy oyansın,
Məshətinin söz dünyası...
Söhbət açaq Füzulinin qəzəlindən ...
Vaqifin də vəsf etdiyi gözəlindən...
Laylay desin Qarabağa
Natəvanın söz dünyası,
Qarabağın şikəstəsi oxusun Xan.
Müjdə verim, Şeir pərim,
Bütövləşib Azərbaycan...
Şeir pərim, can sirdaşım,
Dan ulduzu doğanatək gəl dərdləşık,
Söz bağından çiçək dərək,
Çiçəkləri ləçək - ləçək misra edək,
Yeni əsər yaradaq biz...
Dilə düşüb eli gəzsin bu şeirimiz..
Dan sökülür...
Yeni əsər söz dünyama göz açıbdı .
Bu gecənin bəhrəsidir dil açıbdır.
Dan sökülür...Yer üzünə nur tökülür...

Aysel Xanlarqızı Səfərli

# İnsan Adlı Oyuncağam

Sağ qaldığım savaşlarda,
Zirvəsi talanmış dağam.
Heykəlinə şeir yazan,
İnsan adlı oyuncağam.

Nə təpətək təpə oldum,
Bir zirvə oldum “quşqonan”.
Məni anam doğmadı ki,
Bir daşdan yondu daşyonan.

Dua etdim, şam alışdı,
Yandı içimdə məbədim.
Ay işığına aldandım,
Söndü günəşim əbədi.

Yuvasız, köçəri qəlbim,
Qəfəsdə etdi intihar.
Soruşma məndən halımı,
Gözüm qəm dolu intizar.

Uzaq gəz məndən,İlahi,
Bulaşma insan kirinə.
Yalanla qohum olandan,
Şərikəm dünya sirrinə.

Soruşma məndən halımı,
Necəyəm,deyə bilmirəm.
Soyunmuşam sevincimi,
Əynimə geyə bilmirəm…

## Əzizə Ağahüseynqızı

# Bir Misra Söz

Səhər - səhər bir misra söz
Ağlımı aldı başımdan.
Ha yalvardım, əl çəkmədi,
İçdi gözümün yaşından.

Ürəyimin diləyiydi,
İstəyib özü gəlmişdi.
Həsrətini çəkdiyimi
duyub aşkarca bilmişdi.

Duyğularım yel qanadlı,
Düşdü ruhun kəməndinə.
Ovsarım əlində idi,
Saldı məni öz fəndinə.

Sinəm üstə bulaq kimi
gah qaynadı, gah da daşdı.
Bir də baxdım sətirlərim
qaralibdı, varaq yaşdı.

Sehirli nağillar kimi,
Gah ağlatdı, gah güldürdü.
Yarımcan etdi cismimi,
Gah diriltdi, gah öldürdü.

Hardan gəldi, heç bilmədim,
Bəlkə bu bir qınaq idi?
Bircə onu bilirəm ki,
O, ən əziz qonaq idi.

## İnci Okumuş

# Geceye Şiir Fısılda Kalbim

Gece, şiire döner yüzünü
Gözlerin nemine sığınan kimi şiirler âşikâr olur
Kimi, yıkar yapar  hisarını kalbin
Meftun eder
Hasret eder kimi
Kalıverir  dilinin ucunda
Yaşamak niyetine sır olur
Gece şiire döner yüzünü

Ay, karanlığın içinde yüzer
Yıldızlar çizer kalbin haritasını
Kimi mısralar umut ekler karanlığa
Işık saçar
Nefes olur
Kimi dize, fısıldar geceye
Çevirir rüyaları gerçeğe
Gece, şiire döner yüzünü

Rüzgâr, usulca taşır fısıltıları
Yapraklar şarkılar söyler sessizce
Kimi kelimeler okşar ruhu
Şifa verir
Teselli eder
Kimi sözcük  sır olur
Geçer gönülden gönüle
Gece, şiire döner yüzünü

Deniz, dalgaların ninnisiyle uyur
Aşkı anlatır kıyıya vuran şiirler
Kimi dizeler, kalpte yankılanır
Özlem sarar
Huzur verir
Kimi mısra, hatıralarda saklı
Bir  çığlık olur sessiz
Gece, şiire döner yüzünü

Güneş, umut verir  doğarken
Batarken aşk karışır aydınlığa
Kimi sözler, yeniden doğar
İnanç olur
Güç verir

Kimi dize ışık tutar geleceğe
Taşır hayalleri gerçeğe
Gece, şiire döner yüzünü

Kalbim, sükutun  bekçisi
Şiirler fısıldar gökyüzüne
Kimi imgeler çıkar zirvelere
İlham olur
Ruhu besler
Kimi kelime, engin bir ufukta
Karışır sonsuzluğa
Gece, şiire döner yüzünü

## Bənövşə Mahmudqızı

# Zamanım Var

Qanatmayım yaramı,
Vurmayın insanlarla aramı.
Səbr edirəm, əzm edirəm,
Sevirəm, insanları sevirəm.
Bu axmaqcadır...
Elə insanlara görə...
Göz görə-görə
Ola bilmirəm biqeyrət.
Sizi bürüsə də heyrət,
İnsanlıqdan çıxıb,
İnsanları qınayıb,
Arsız-arsız demirəm,
" İnsanlıq hanı? "
Qanatmayın yaramı
deyirəm,
Yara bir mi, iki mi...
İllərin birikimi...
Don vurmuş arzuları
Alovlandırmayın.
Kaş, axı, niyə...
Dönmək olmur geriyə.
Qanatmayın yaraları,
Qırmayın qanadları,
Uçmağa yerlərim var,
Qaçmağa yerlərim var,
Əsl insan olmağa
Xoşbəxt olmasam belə,
Zamanım var?!

## Arzu Nehrəmli

# Yol Ayrıcı

Qayğılar yurdudur köksüm,
Əyir ki, belim bükülsün.
Çəkin üstümdən tökülsün,
Bir az ətə, qana gəlim.

Şanslı, şan-şöhrət oluram,
Çoxuna heyrət oluram,
Artır, biqeyrət oluram,
Gedim ki, imana gəlim.

Yoxmu çözümü, əlacı,
İçimi qovurur sancı,
Çaşdırıbdır yol ayrıcı,
O yana, bu yana gəlim?!

Arzu, can o hayda deyil,
Qanun bilməz, qayda deyil,
Dünya da sən boyda deyil,
Qalxım ki, üsyana gəlim.

## Beyhan Gözükara

# Döndüm Deliye

Bir isyan yükseldi bu gün içimden sevgiliye,
Bir başkasını görünce yanında döndüm deliye,
Oysa kaç defa söylemişti,senden başkası asla olma-yacak diye.
Lanet, lanet okudum ona olan tüm sevgiye.

Henüz küllenmeden aşkımız daha,
İhanet ettin bana girdin günaha.
Kapattım tüm hesabı gerek yok artık deftere kitaba.
Ümidim de kalmadı zaten çıkmak için sabaha.

Çok uzakta kaldı artık mutluluğun sesi.
Çekilsin üstümden çekilsin anıların gölgesi.
Rahat bırakmalı artık beni ayrılığın bile ötesi.
Unutacağım, unutacağım seni vermeden son nefesi

## Vüsalə Vətənxan Mehri

# Getdin

Atdın məni ey dilbər, səssizcə çıxıb getdin,
Öldürdüyün insanə fəxr ilə baxıb getdin.

Arxanca gözüm yaşlı, görməzcə dönərkən sən,
Rəftarın ilə qəlbi bir anda yaxıb getdin.

Neyçün eləyib peşman qəlbimdəki sevdamı,
İllərcə olan eşqi bir gündə yıxıb getdin.

Mən dağ kimi eşqimlə qarşında sipər oldum,
Dəryasayağı məndən leysantək axıb getdin.

Əfsus ki inanmışdım ömrüm sənə bağlanmış,
Sənsə bu geniş ömrü dərd ilə sıxıb getdin.

Qürrənlə baş aldın sən, divanəliyin tutdu,
Bildim ki bu yol ilə əfsus karıxıb getdin.

Ayrıldı Vüsaləndən həqqin üfürən ruhu,
Dünyanı görüb tənha, sən də darıxıb getdin.

## Sevinç Qəmberli

# “Çılpaq və yalnız” yaxud “Göy Adamı ilə Mükalimə”

Həyat nə rəngdədir? Buqələmun rəngində,
Bəs dadı necədir? Dada bildiyin kimi...

240-cı səhifə... Hər şey eşqlə başladı və əsər bir robot olmaqdan çıxdı, ruh gəldi ona. Məsudun Akidəyə aşiq olduğu həmin o səhnə: “Mənə gəlib çatan səsi gözəldi! Həmişə həyatımdakı qadını ayaqqabısından tanıyacağımı düşünürdüm, amma səsindən tanıyacaqmışam. Gözlərim açıldı və göz-gözə gəldik. Aşiq olan bir kişi baxışlarıyla eləcə gözlərinə baxdım.O da mənim gözlərimə baxdı. Danışmadıq. Mən həm də neyləyəcəyimi bilmədim. ..Eşq deyilən hiss insan özünü başqa heç nəylə hiss eləməyəcəyi qədər gözəl hiss eləsin, ucalsın, uçsun getsin deyə yaradılmış olmalıydı”. Çünki eşqsiz hər şey ruhsuz bir cəsəd kimidir, çünki eşqsiz həyat mənasız bir oyun kimdir. Eşq olmazsa səhər ayılmaq istəmərik, eşq olmazsa hər şey ağır bir yük olar, eşqdir dağ boyda yükləri, çətinlik və təhlükələri hissedilməz edən. “Eşqsiz, ey dünya, nədir dəyərin?! (Nizami)”.

Məsud Akidəni gördüyü ilk anda anlayır ki, illərlə axtardığı, ömrünü bir yerdə başa vurmaq istədiyi həmin o qadına rast gəlib. İlk bərabərlikdən sonra Akidə ona başa salmağa çalışır ki, ona çox aşiq olmuş olsa belə, bu izdivac mümkün olacaq bir şey deyil. Çünki onun qeyri-qanuni, hamıdan bir sirr kimi gizlətdiyi, yaş yarımlıq bir oğlu var. Bunu eşidən Məsud isə qarşılıq olaraq bildirir ki, onunla ailə qurmağı və icazə verərsə övladına atalıq edərək bərabər böyütməyi hər şeydən daha çox istəyir. “Əgər həyatında kimsə yoxdursa, əgər məni gerçəkdən sevirsənsə, pis dediyin, əngəl dediyin heç bir şey məni maraqlandırmır... Sən elədiyinin xəta olduğunu düşünürsənsə, sənin xətana belə aşiq olan biri var qarşında... Səndən ömür boyu heç nə soruşmayacağam. Şərəfimə and içirəm”. Məsud sona qədər sözünə sadiq qalır, amma həmişə daxili bir əzab çəkir. Akidəyə olan sevgisi azalırmı? Əsla. Akidənin əlini son nəfəsinə qədər buraxırmı? Əsla. (Xətaya aşiq olmaq nə imiş?!).

“Adı qanıma qarışdı və içimin hər zərrəsinə işlədi: Akidə. Akidə Akidə”. Məsud və Akidə əlli illik bir evlilik həyatı yaşayırlar, dörd uşaq böyüdürlər, bilik və bacarıqlarını inkişaf etdirmək üçün daima çalışırlar, hərəkətli, dolu bir ömür keçirirlər yan-yana.Amma Məsudun ürəyində olan şübhələr, təxminlər, uydurmalar həmişə onu içəridən yeyən bir qurd kimi əzab verir, ürəyində Akidəyə qarşı sonralar üzüntü ilə əvəz olunacaq bir qəzəb hissi belə yaranır. Amma bu onun sevgisini soyutmur, daha da artırır və bir daha əmin olur ki, Akidəyə sandığından daha çox aşiqdir. Ona qarşı heç bir vaxt dəyişmir, amma bağışlamır da. Bütün həyatı bu səssiz böhranlar içində keçir. Bir təxmini də o olur ki, uşağın atası özünün Muvaffak əmisidir. Zorla, ya razılıq ilə, əmisi bir təcavüzkardırmı, yoxsa Akidə heyranlıq hiss elədiyi adama özümü yaxınlaşıb. Əmisinin qovluqları arasında Ankaranın bahalı məhəlləsində Akidənin adına olan bir mülkün sənədini tapanda çox sarsılır, imanı bir yerə, gümanı min yerə gedir. Roman bitir, amma bütün bu suallar cavabsız qalır, həm qəhrəman, həm oxucu üçün...

Aşiqəmmi sənə, yoxsa heyran?! Bədii ədəbiyyatı mütaliə eləməyin çox faydalı və maraqlı tərəfləri var: elə bir anında elə bir cümlə, elə bir fikir oxuyursan ki, sənə dayaq olur, sənə həkim olur, sənə məlhəm olur. Bəzən şəffaf, iri damlalı bir yaz yağışına çevrilə bilməyib qəlbinin səmasını daima doluxsunmuş buludlu, sıx dumanlı saxlayan, mavruların oynadığı ipliklər kimi dolaşıq (gülümsəyirəm), özünün belə çözə bilmədiyin qarışıq düşüncə və duyğularında gözəl bir yay səhərində olduğu kimi aydınlıq yarada bilir mütaliə, rahatlıq tapırsan, yüngülcə, ciyərdolusu dərin bir nəfəs aldırmağı çox görmür sənə mütaliə. Hamdi Koç romanda aşiqlik və heyranlıq hisslərinə toxunur, belə ki, qəhrəman Akidəyə aşiq, minnətdarlıq və bağlılıq hiss elədiyi,ömrünün sonuna qədər görüşdüyü, dərdləşdiyi birinci arvadı aktrisa Yasəmən xanıma isə heyran olduğunu etiraf eliyir. Bəlkə də bu qəflətdə olan bir oxucunu ayıldır ki, bunlar fərqli şeylərdir. Bu hisslər çox-çox bənzərdir, ayırd eləmək çətindir, dilçilik və ədəbiyyatşünaslıq kimi üzvi surətdə bir-birinə sıx şəkildə bağlıdır, arxaizm və dialektizmlər kimi qarışıqdır bəzən, sərhədləri və cizgiləri göstərməkdə çətinlik çəkə bilərsən, amma başqa-başqa şeylərdir. Elə bu andaca keşişin Jan Valjana (Hüqo) elədiyi kimi birinin

ruhu xilas ola bilər yersiz bir ağırlıqdan.

Əsərdə Məsudun özündən böyük bir qardaşı olur. Qardaşını sevir, ona rəğbəti var, həm də günahlandırır. Niyə sevir? Çünki qardaşıdır, səliqə-sahmanlı bir tipdir, ağıllıdır, təhsillidir, onunla pis davranmır. Uşaq yaşlarından Məsuda qarşı həmişə biganə olan, sevgi, diqqət, qayğı görmədən böyüdüyü ailəsi o əsgərlikdə olduğu zaman avtomobil qəzasına düşəndə, onları xatırlayanda ürəyi ən çox qardaşına yanır, ona qarşı olan istəyi əsər boyu özünü büruzə verir. Xeyli vaxtdan sonra onun qəbrinin qarşısında olanda keçirdiyi hissləri səmimi bir şəkildə belə ifadə eliyir: "Bir müddət qəbrin yanından ayrıla bilmədim. İlk dəfə həyatımda qardaşımı görmək istədim və səssiz-səssiz ağladım. Kitab və val marağını xatırladım, eqoistliyini xatırladım, mənə heç qardaşlıq eləmədiyini xatırladım, zəngin olmağı çox istədiyini xatırladım, yenə ağladım". Niyə günahlandırır? Öz dili ilə desək: "..əmim necə atamın hissəsinin arxasına keçdisə, qardaşım da mənim gələcəyimi elə əlimdən aldı, kollecə gedib, ailəni pulsuz-parasız qoyub...Mən də kollecə gedə bilsəydim, bəlkə, daha xoşbəxt bir uşaq olaraq böyüyərdim. Daha xoşbəxt bir gənc olardım". Sonralar Məsud qəlbində qönçə kimi qalmış arzularının arxasınca əzmkarlıqla gedir, ədəbiyyat üzrə professorluğa qədər yüksəlir.

Kitablarla sonradan doğmalığa, yaxın dostluğa çevrilmiş ünsiyyətinin, tanışlığının yaranması da qardaşının adı ilə bağlıdır. "Dükanın rəfləri kitablarla doluydu. Ürəyim alış-veriş eləmək, qardaşım kimi kitablarla məşğul olmaq istədi. Bir xeyli roman aldım. Qardaşım yerli yazıçıları sevməzdi, deyərdi ki, türklər roman yazmağı bacarmırlar. Bəlkə, haqlıydı, amma qəbul edilməsi mümkün deyildi. Onun acığına Xalidə Edipin, Peyami Safanın heç birini oxumayacağım xeyli romanını aldım". Bu məqamda belə qardaşına olan duyğularının haçalandığını görürük: həm onun kimi, həm onun acığına. Bu hissədə yazıçı ustalıqla tez-tez müzakirələrə səbəb olan başqa bir məsələyə də (türklər roman yazmağı bacarmırlar?!) toxunaraq öz mövqeyini nümayiş elətdirir. Qeyd edək ki, bu yanlış fikrə balta vuran ən güclü imzalardan biri də elə müasir türk romançılığının aparıcı, parlaq simalarından biri olan Hamdi Koçun özüdür. Belə ki, o, bir çox dəyərli, sanballı əsərlərin müəllifidir: "Körpələrin ölüm mahnıları" (1992), "Çiçəklərin tanrısı" (2003), "Xoş diləklər ölkəsi" (2005), "Bir keçmiş ərin günortadan sonrası" (2009), "Yalnız qaldınız, Pəyami bəy"(2017). Müəllifi olduğu "Mələklər kişi olur" (2002) romanı ilə Türkiyənin ən çox oxunan yazarlarından birinə çevrilmiş, "Çılpaq və yalnız" (2013) romanı ilə bir çox mükafatlara layiq görülmüşdür.

Türk insanı çox istedadlıdır, hərtərəfli və olduqca yaradıcıdır.Türk insanının potensialı çox-çox güclüdür. Buradan da belə nəticə çıxarmaq olar ki, problemi müəyyən qədər başqa şeylərdə axtarmaq lazımdır, almazın cilalanaraq brilyanta çevrilə bilmədiyi prosesdə və s. Amma bu fakt belə mövcud olan reallığı, boşluğu görməzdən gəlib etiraf etməli deyilik fikrinə haqq vermir, çünki türk toplumunda bu məsələ (türklər roman yazmağı bacarmırlar?!) və onu yaradan səbəblər var, buna göz yuma bilmərik. İlk növbədə biz özümüzə tənqidi yanaşmağı bacarmalı, çatışmazlıqlarımızı görməyi,deməyi və düzətməyə çalışmağı bacarmalıyıq. "Göy Adamı, məndə davamlılıq yoxdur sanki, uzun müddət bir işlə davamlı, mütəmadi şəkildə məşğul ola bilmirəm. Göy Adamı: -Hamımız eləyik..". Hamdi Koç bu barədə düşüncələrini belə ifadə edir: "Oxuduqca, biliyim artdıqca, zövqüm formalaşdıqca qardaşıma haqq qazandırdığım zamanlar da oldu. Mənə elə gəldi ki, bizim türklər üç ayda bitirmədikləri işləri heç bacarmırlar, bacardıqları işləri də üç ayda bitirdikləri çox bəlli olur. Səbr, inam, dözüm bizə aid nəsnələr deyil. Bizim görüş məsafəmiz üç aydır". Çinli tələbələr "oğuzların hörmətlə əldən-ələ gəzdirdikləri" "Dədə Qorqud kitabı" nı oxuduqdan sonra, həyat tərzlərimizin nə qədər fərqli olduğunu xüsusi olaraq vurğuladılar. Biz əsasən, heyvandarlıqla məşğul olub köçəri həyat tərzi keçirmiş (yaylağa, qışlağa), ömrü at üstündə, döyüşlərdə keçən, zamanla daha uzaq, geniş ərazilərə səpələnən bir toplum olmuşuq. Bütün bunları nəzərə alaraq türk insanının təbiətini, qüdrətini və dinamikasını anlamaq çətin deyil. Amma unutmayaq ki, hər bir şeydə arzulanan nəticə üçün davamlılıq çox önəmlidir (zənciri qırma prinsipi ilə).

Hamdi Koç qəhrəmanının dili ilə insanın kitablardan ala biləcəyi zövqü və dadı, bəhrəni və faydanı, kitabların həyatımızda oynaya biləcəyi rolu (buna icazə verin) çox gözəl ifadə etmişdir: "Düşüncələrim elə bir suallar yağmuru altındaydı ki, özümü kitaba verə bilmək üçün oxumağı təzə-təzə öyrənir-

mişəm kimi zəhmət sərf eləməyim, dirənməyim, inad etməyim lazım gəlirdi. Çətinliklə, az da olsa, bacardım, özümü, suallarımı tez-tez unutdum. Bu, yaxşı bir tərbiyə oldu. Sonrakı illərimdə içkidə, dərmanlarda təsəlli axtarmaq məcburiyyətində qalmadan içimi kitab oxuyaraq təmizləməyi öyrənməyə başlamış oldum. ...zövqünü aldıqdan sonra kitablardan başqa şeyə pul xərcləməyə qıymayan, maraqlanmayan oldum."Kitablar dostdur (Puşkin), kitablar yaradır. Kitablar insanın ən etibarlı dostudur: atmır, satmır, xəyanət eləmir, kürəyindən vurmur, qısqanmır, paxıllıq etmir, söz almır, şərləmir, təhqir etmir, incitmir. Kitablar insanı yaradır: ilmə-ilmə, kərpic-kərpic. İnsanın insandan "üstünlüyü" ancaq mütaliəsi, elmi, oxuduğu kitabların sayı, çoxluğu ilə ola bilər. Kitab zənginləşdirir: mənəviyyatı, nitqi, dünyagörüşünü. Kitab müdrikləşdirir, təmkinli edir, xarizma verir illər sonra davamlı mütaliə. Hadisələrə, münasibətlərə qarşı olan dəyərləndirmə, yanaşma fərqli olur çox oxuyan insanlarda, fəlsəfələri dərin olur və s.

"Çılpaq və yalnız" həm kifayət qədər irihəcmli (Azərbaycan dilində 560 səhifə, türk dilində 640 səhifə. Maraqlıdır ki, həcmdə yaranmış olan bu böyük fərqi tərcümə ilə məşğul olanlar necə əsaslandıra bilər?!), həm roman janrına uyğun olaraq çoxşaxəli, rəngarəng obrazlar və hadisələr ilə olduqca zəngin bir əsərdir. Burada o qədər toxunmaq istədiyin məqamlar, işıqlandırmalı olduğun maraqlı və mühüm hissələr var ki, bir "cızma-qara" hamısından danışmağa yetmir. Belə ki, ən azından əsərdə baş verən qeyri-adi hadisələri, mistik səhnələri şərh eləmək ehtiyacı hiss eliyirsən. Ona görə ilk yazıdan ("Misilsiz canavar" və ya "Sən göydənmi gəldin, Skott?!") sonra səsləndirilən dəyərli tövsiyələri nəzərə alaraq bir yazının həcminin çox olmasına yol verməyək, axı oxucunu da nəzərə almaq lazımdır (gülümsəyirsən). Qeyd eləmək istərdim ki, romanın poetik dili də çox oynaq, rəngarəng və cəlbedicidir: bədii təsvir və ifadə vasitələri, məcazlarla olduqca zəngindir (Sakit, musiqili, parlaq və gənc su; dadlı səs, istilik, cümlələr; ağır, boyat yorğunluq qoxusu çökmüş hava; Suallar ayağıma dolaşır, ağırlıq yaradırdı və s.). Şərhləri və fikirləri maraqlı hesab eliyən işıqlı gözlər və ürəklər üçün növbəti hissə gələcək, əsrarəngiz, parıltılı bir təbəssümlə simanız həmişə işıqlansın, gözəl insanlar.

## Adilə Nəzər

# Elə Bir Güzgü ki

Masamın üstündə bəyaz kağızlar
Əllərim kağıza qığılcımsaçan.
Təkcə gələn sözdür üzümə gülən,
Odur aradabir keyfimi açan.

Keçdiyim dar küçə, yol, döngə, dalan,
Kəsək insanların daş duyğusudur.
O qara gecədən geriyə qalan
Elə bu şeirin sərxoşluğudur.

Həyat bu... yellədir, sanki beşikdir,
Üşüdən sanma ki, qış küləyidir.
Dön bir bax, gör necə deşik-deşikdir
Mənim yazıq qəlbim söz ələyidir.

Heç nə istəmirəm səndən, İlahi,
Bir gün mənə gəlsən bir güzgü gətir.
Elə bir güzgü ki... belə vəsf edim:
O güzgü hamını xoşbəxt göstərir.

Səidə Əliyeva

# Muğam Sehrində

Yenə bahar gəlib qaynayır həyat,
Bürünüb yam-yaşıl tülə təbiət.
Sirli-soraqlıdır sonsuz kainat,
Tarı, kamanı, sazı əbədiyyət.

Ana təbiətin çıxam seyrinə,
Arayam kolu-kosu, göy çəməni.
Dərəm ətirli nərgizi, bənövşəni,
Haray sala Baş Sarıtel, Ruhani.

Sehir, möcüzə, füsunkar təbiət,
Fani dünya nağıl, həyat qəribə.
Həyatın nəbzidir segah, muğamat,
Pərdə-pərdə ucala Şur, Qatar, Rast.

Elə ki, duyular bahar nəfəsi,
Ötən bülbüllərin qəmli nəğməsi.
Sehrə, tilsimə salar hər kəsi,
Havalanan Qarabağ şikəstəsi.

Alim oxuya Cahargah, Heyratı,
Könül «Gecələr»i, Yetim Segahı.
Zeynəbin Leylisi gəzə dünyanı,
Arifin Məcnunu qumlu səhranı.

Habilin əlində kaman inləyə,
Ədalətin sinəsində saz dinə.
Səidə qulaq as qəlbin səsinə,
Üz tut arzuların şah zirvəsinə.
Nisgil, qübar köçəndə ürəyinə,
Qulaq as Qarabağ şikəstəsinə.

yaradır: ilmə-ilmə, kərpic-kərpic.

İnsanın insandan “üstünlüyü” ancaq mütaliəsi, elmi, oxuduğu kitabların sayı,

çoxluğu ilə ola bilər. Kitab zənginləşdirir: mənəviyyatı, nitqi, dünyagörüşünü.

Kitab müdrikləşdirir, təmkinli edir, xarizma verir illər sonra davamlı mütaliə.

Hadisələrə, münasibətlərə qarşı olan dəyərləndirmə, yanaşma fərqli olur çox

oxuyan insanlarda, fəlsəfələri dərin olur və s.

“Çılpaq və yalnız” həm kifayət qədər irihəcmli (Azərbaycan dilində 560

səhifə, türk dilində 640 səhifə. Maraqlıdır ki, həcmdə yaranmış olan bu böyük fərqi

tərcümə ilə məşğul olanlar necə əsaslandıra bilər?!), həm roman janrına uyğun

olaraq çoxşaxəli, rəngarəng obrazlar və hadisələr ilə olduqca zəngin bir əsərdir.

Burada o qədər toxunmaq istədiyin məqamlar, işıqlandırmalı olduğun maraqlı və

mühüm hissələr var ki, bir “cızma-qara” hamısından danışmağa yetmir. Belə ki, ən

azından əsərdə baş verən qeyri-adi hadisələri, mistik səhnələri şərh eləmək ehtiyacı

hiss eliyirsən. Ona görə ilk yazıdan (“Misilsiz canavar” və ya “Sən göydənmi

gəldin, Skott?!”) sonra səsləndirilən dəyərli tövsiyələri nəzərə alaraq bir yazının

həcminin çox olmasına yol verməyək, axı oxucunu da nəzərə almaq lazımdır

(gülümsəyirsən). Qeyd eləmək istərdim ki, romanın poetik dili də çox oynaq,

rəngarəng və cəlbedicidir: bədii təsvir və ifadə vasitələri, məcazlarla olduqca

zəngindir (Sakit, musiqili, parlaq və gənc su; dadlı səs, istilik, cümlələr; ağır, boyat

yorğunluq qoxusu çökmüş hava; Suallar ayağıma dolaşır, ağırlıq yaradırdı və s.).

Şərhləri və fikirləri maraqlı hesab eliyən işıqlı gözlər və ürəklər üçün növbəti hissə

gələcək, əsrarəngiz, parıltılı bir təbəssümlə simanız həmişə işıqlansın, gözəl

insanlar.

## Nazira Boymurodova

## Güler Yaşarım!

Geçer dünya, gamlar da geçer
Mutlu, mutsuz anlar da geçer.
Çok ağladım, belki de yeter
İndi fakat güler, yaşarım.

Arman idi tek arkadaşım
Söylesem hiç bitmezdi ahım.
Bir yaradan benim panahım
İndi fakat güler, yaşarım.

Çok ağladım, göz kararmadı
Gam çoğaldı, dert azalmadı.
Gözyaşlardan iyileşmedim
İndi fakat güler, yaşarım.

Dertlerime bulup melhemi
Bir köşeye atıp elemi.
Sevindirip güzel gönlümü
İndi fakat güler, yaşarım.

Dağlardaki laleler gibi
Kaygısı yok balalar gibi.
Sevincimden haykıra taşa
İndi fakat güler, yaşarım.

## Zemfira Məhərrəmli

# Yuxunu Suya Danış (hekayə)

*Anamın Əziz Xatirəsinə*

Həyətdə bərk çaxnaşma düşmüşdü. Hamı dəli kimi ora-bura vurnuxur, ağıl kəsən hər yerə göz qoyur, təşviş içində axtarış aparırdı. Boy-boya vermiş günəbaxan kollarının, pitraq gilənar ağaclarının arxasına, su quyusunun ətrafına, göyərçinlərin damına, hətta toyuq hininə də baş çəkmişdilər. Az qala bir-birinə bitişik qonşu həyətlərdə səslərinə hay verən, axtardıqlarını "gördüm" deyən olmamışdı.

Ağbirçək Gülnisə ana keçirdiyi həyəcandan lap yumağa dönmüşdü. Onsuz da can-cəsədi yoxuydu, o qədər arıq idi ki, yaxınları onu armud saplağına bənzədirdi. Bir yandan da bu hadisə...

Arvad özünü tamam itirmişdi, bilmirdi başına haranın külünü töksün. Evin kişik qızı Rəhiləni elə hey danlayırdı:

- Sənə nə olub, bilmirəm, fikrin-zikrin haradadır? Gözün hara baxır? Bir uşağa da həyan ola bilmirsən. Indi bacına nə cavab verəcəyik? Hələ kürəkəni demirəm. Axı, səfərə gedəndə uşağı bizə tapşırıb, "gözünüz üstündə olsun" emişdilər.

Rəhilə isə uzun hörüklərini sinəsində çarpazlayıb gözünün yaşını axıdırdı. Ağlaya-ağlaya:

-Axı, mən hər yerə baxdım, bu üçyaşlı uşaq necə yoxa çıxdı? Bəlkə, həyət qapısından oğurlayıblar? İynə deyil ki, yerə batsın...

Gor qonşusu Soltan əminin arvadı Leyla bacı hay-harayla qapıda göründü:

-Gülnisə, bizim çarhovuzun içinə də baxdım. Dilimə yara çıxsın, dedim birdən uşaq ora düşər, allah eləməsin...

Bu sözə bəndmiş kimi, Gülnisə ana hövlnak özünü həyətə atdı:

-Heç gör ağlımız kəsir öz çarhovuzumuza baxaq? Axı, Rəhilə həmişə qızcığaza qırmızı balıqları göstərir, uşaq dili ilə nağıllar danışırdı.

O, bu sözləri birnəfəsə deyə-deyə ayaqyalın, başaçıq həyətlərindəki hovuza tərəf qaçdı. Leyla bacı və Rəhilə də onun dalınca yüyürdülər.

Gördükləri mənzərədən dəhşətə gəldilər. Balaca Zərif hovuza düşmüşdü. Görünür, çox su udduğundan bədəni şişkin halda idi. Başına döyüb zar-zar ağlayan Gülnisə qızcığazın qırmızı donundan yapışıb qonşusunun köməyi ilə onu sudan çıxardı. Uşağı sinəsinə sıxdı. Ayaqları bir-birinə dolaşır, güclə yeriyirdi.

Zərifi evə gətirən kimi əynini dəyişib yatağa uzatdılar. Körpə sanki dərin yuxuda idi. Qıvrım şabalıdı saçları yaraşıqlı üzünə səpələnmişdi.

Gülnisə ana hıçqırığını boğaraq nəvəsini oxşayırdı. Onun ayılması, özünə gəlməsi üçün, bəlkə, hər şeyi qurban verərdi.

Bu hadisədən sarsıntı keçirən Rəhilə birdən ucadan səsləndi:

-Ana, heç ağı deməyin vaxtıdı? Zərifi tez həkimə çatdırmalıyıq. Əlimizdən başqa nə gəlir ki...

-Ay qız, Gülnisə! -Leyla bacı çığıra-çığıra danışırdı. - Deyirəm, bəlkə, qonşu məhəllədəki Madəb xalanı çağıraq, əlləri qızıldı, hər dərddən başı çıxır. Suda boğulanı da dirildir.

Elə bu vaxt Müzəffər kişinin zəhmli səsi həyətdə eşidildi. "Faytonçu Müzəffər" kimi tanınan, el içində hörmət-izzət sahibi olan bu kişi öz at-arabası ilə insanların qulluğunda durur, necə deyərlər, halal zəhməti ilə ailəsin olandırırdı. Evdə bir sözü iki olmayan, hökmü, zabitəsi ilə hər şeyi sahmana salan Müzəffər kişi həyətdə görünər-görünməz onun dalınca yaxın qonşular da gəldilər. Kimsə ara həkiminə xəbərə qaçdı, Rəhilə isə təcili yardıma zəng eləyirdi.

Əlli-qollu, qivraq görkəmli Madəb xala bir göz qırpımında özünü yetirdi. Cəld qızcığazı qaldırıb cibindən çıxardığı güzgünü onun ağzına yaxınlaşdırdı. Güzgünün azacıq tərlədiyini görəndə:

-Uşaq sağdı, -deyə qışqırdı. -Kim mənə kömək edəcək?

Sualın cavabını gözləmədən qızcığazı silkələməyə, ona süni nəfəs verməyə başladı. O, Zərifi əlindən yerə qoymur, qan-tər içində

əlləşirdi.

Birdən uşaq haldan-hala düşərək, xırıltı ilə öskürməyə və udduğu suyu qaytarmağa başladı. Azca toxdayıb gözlərini açdı, heysiz, üzgün halətdə ətrafına boylandı və solğun gözləri yenidən qapandı.

Körpənin özünə gəlməsinə hamı sevinirdi və olub-keçənlərə mat-məəttəl qalmışdı.

Artıq təcili yardım maşını da gəlib çıxmışdı. Həkim baş verənlər barədə məlumat alıb, uşağı tez müayinə etdi, onu xəstəxanaya aparacağını söylədi.

Boynunu bükmüş, bu hadisədə özünü hamıdan artıq günahkar sayan Rəhilə:

-Həkim, sizinlə mən gedəcəyəm, - dedi.

Yaxşı bilirdi ki, yaşının bu çağında körpəyə baxmaq anasına çətin olardı.

* * *

Mədinə müəllim sənətini seçmişdi, artıq beş-altı il idi ki, məktəbdə dərs deyirdi. Vaxtilə eyni universitetdə, eyni fakültədə oxuduğu, indi mühəndis işləyən İsmayıl adlı gənclə ailə qurmuş, dünyaya iki gözəl övlad gətirmişdi. Bir-birinə sevgi və saygı hissi ilə xoşbəxt yaşayırdılar.

Rusiya şəhərlərindən birinə ixtisasartırma kursuna göndərilən İsmayıl yay tətili günlərində Mədinənin uşaqlarla həmin şəhərə gəlməsini arzulamış, o da yola hazırlaşmışdı. İki uşaqla səfərə çıxmaq çətin olduğu üçün Mədinə dörd yaşlı Oqtayı özü ilə aparmış, Zərifi isə anasına və hələ ailə həyatı qurmayan subay bacısına tapşırmışdı. Sonrası isə ...

Zərifi xəstəxananın əvvəlcə reanimasiya şöbəsinə yerləşdirdilər, ertəsi gün isə boğazı şişdiyi üçün cərrahi əməliyyata götürdülər.

* * *

Mədinə səhər saatlarında həyat yoldaşı və oğlu ilə Lena çayı boyunca katerdə gəzintiyə çıxmış, parklara, muzeylərə baxmış, təzəcə yetişmiş çiyələk alıb balaca oğluna yedirtmiş, bu şimal şəhərindəki şir heykəllərinin önündə, yaşıllıqlar arasında xatirə şəkli çəkdirmişdilər.

Piter şəhərinin görməli yerləri çox olsa da, ürəyi birdən-birə sıxılmağa başladı. Atdığı həblərin də köməyi olmadı.

Gecə isə gözünə yuxu getmirdi, elə bil yerinə qor dolmuşdu. Elə hey Zərifi düşünürdü. Handan-hana, deyəsən, yuxulamışdı.

Hər şey zil qara pərdənin içindəydi. Övladlarını çox sevsə də, bunu heç vaxt biruzə verməyən atası, tünd xasiyyətli Müzəffər kişi, ipək kimi yumşaq, heç kəsi incitməyən Gülnisə ana, yeganə qardaşı İlyas, bacıları Şirin və Məsmə ilə yanaşı, ailənin sonbeşiyi, xətrini dünyalarca istədiyi Rəhilə də qapqara geyinmişdi. Elə bil yasa batmışdılar. Ətrafda isə lal-dinməz, ürəksıxıcı bir sükût hakim idi.

Dil-dil ötən, yastı-yastı danışıb hər kəsi özünə cəlb edən şirin-şəkər Zərif gözə dəymirdi.

Hamı onun sorağında idi, nəzərlər onu axtarırdı. Bu ölü sakitlik, susqunluq içərisində birdən Zərifin çığırtısını eşitdi:

-Ana, sən hardasan? Niyə məni qoyub getmisən?!

Matəm ab-havası yaradan tünd qara pərdə Zərif peyda olan kimi sanki yırtılıb yoxa çıxdı, günəşin zərrin şüaları ətrafı işıqlandırdı. Səssizliyi isə güclü su şırıltısı üstələdi. Yazbaşı gur bulaqlarınmı gözü açılmışdı, yolunda hər şeyi yuyub aparan iti dağ çayımı axırdı, yoxsa sərt, sıldırım qayalar arasında şəlalə çağlayırdı? Anlaya bilmirdi: qəribəsi o idi ki, nəhayətsiz, aşıb-daşan, ağ köpüklü dalğalar Zərifi amansızcasına ağuşuna alıb aparırdı...

* * *

Mədinə diksinib yuxudan ayıldı və uca səslə:

-Can, mənim balam, -deyib özünü çarpayıdan yerə atdı.

Pəncərədən çölə baxdı. Istirahət günüydü və səhər yenicə açılırdı. Gördüyü narahat yuxunun üzücü təsiri altında həyat yoldaşını səslədi:

-İsmayıl, bilsən nə pis yuxu görmüşəm. Zərifi sellər-sular aparırdı. Qızımızın başında nəsə var.

O isə Mədinəni sakitləşdirməyə çalışır, “zəng edib, bir məlumat alarıq,” -deyirdi.

-Anamın bir sözü var, həmişə deyir ki, su aydınlıqdı. -Mədinə bu sözləri söyləyib , əl-üz yuyulan yerə keçdi. Kranı açıb, gur su axdıqca yuxuda gördüklərini səssizcə öz-özünə danışır, beynini məşğul edən kabusdan qurtulmaq istəyirdi: Azca toxtasa da, yarı canı körpəsinin yanındaydı.

Oğlunu yuxudan oyadıb, tələm-tələsik səhər yeməyini verdi. Mədinənin təkidi ilə elə həmin gün Bakıya təcili uçuş üçün bilet sifariş edildi. İsmayıl Mədinəni və balaca Oqtayı hava liamnından yola salarkən onlara ürək-dirək verib, hər şeyin yaxşı olacağını söyləmişdi...

* * *

Bakıya dönmələrindən kimsənin xəbəri yoxuydu. Təyyarədən düşən kimi Mədinə oğlu ilə taksiyə əyləşib düz atası evinə gəldi. Ürəyi quş kimi çırpınırdı. Yuxuda gördükləri onu yolboyu rahatsız etmişdi.

Qapıda onları Gülnisə ana qarşıladı. Pərt, küskün görkəmi vardı.

-Sizə qurban olum, ay bala, hardan bildin ki, Zərif...

Sözünün ardını gətirə bilmədi, qəhər onu boğdu.

-Uşaq indi hardadır, ana, vəziyyəti necədir? -Mədinənin səsi titrəyirdi.

Gülnisə olub-keçənləri tələsə-tələsə danışıb, yüz dəfə üzrxahlıq elədi, uşağın indi xeyli yaxşılaşdığını söylədi.

Xəstəxanaya sanki quş qanadında çatmışdı. Bir də gördü ki, palatanın azca aralı qalan qapısı qarşısındadı. Ürəyi şiddətlə döyünürdü. Başı, boğazı tənziflə sarınmış Zərif çarpayıdan məlul-məlul boylanır, sanki anasının xiffətini çəkirdi. Hörüyünü topalayıb sancaqlamış, çarpayının kənarında arxası qapıya əyləşən Rəhilə onun balaca, toppuş əllərini sığallayırdı.

Anasının otağa səssizcə girdiyini görüncə qızcığaza sanki dünyanı bağışladılar. Zərifin dilindən qopan “Ana” kəlməsi Mədinəni yamanca kövrəltmişdi. Sevincdən doğan göz yaşları yanağı boyunca süzülürdü. Qızını bağrına basaraq:

- Hər şeyə qadir olan Allah körpə balamı qorudu. Nə xoşbəxtəm, ilahi, -deyə düşünürdü.

## Nazile Gültac

# Suya Yazılan Sevda

Şiir yazdım suya.
Gönlümden başlamış,
akıyor yüzü çaylara.
Çiçeklerin yüzünde
Ağlıyor damla- damla.

Şiir yazdım sabaha,
yüreğim ufkunda.
Çırpınıyor göğsünde
bahtımın saatleri.
Döşeniyor ayağına
gecenin yıldızları.

Şiir yazdım sevdaya,
Belenip ay ışığına,
Bu sevda ne sana, ne bana,
Bu sevda yazılmış suya.

## Nəzakət Məmmədli

# Şəhid Anası

Köksündə ağrı var dağın, daşın da,
Qan izi buğlanır hər qarışında.
Oğlun heykəlləşib yurd yaddaşında,
Sil göz yaşlarını, şəhid anası.

Haqqın, həqiqətin sözü səndədir,
Sevgi ocağının közü səndədir.
Millətin, Vətənin gözü səndədir,
Sil göz yaşlarını, şəhid anası.

Dözümün, təmkinin lap son həddisən,
Namusun, qeyrətin pak sərhəddisən.
Düşmən bizə baxır əymə qəddi sən,
Sil göz yaşlarını, şəhid anası.

Oğlun itirmədi haqqı-sayını,
Asdı zirvələrdən öz harayını.
Dağıt qəlbindəki qəm sarayını,
Sil göz yaşlarını, şəhid anası.

Xətai babamın yolu diksinir,
Babəkin kəsilmiş qolu diksinir.
Vətənin hər şəhid oğlu diksinir,
Sil göz yaşlarını, şəhid anası.

Demə itib ömrün bəxtiyar çağı,
Qapıtək açılır haqqın qucağı.
Alışır ümidin sönmüş ocağı,
Sil göz yaşlarını, şəhid anası.

“Vətən”, “ana” sözü tən yaranıb, tən,
Bu inam üstünə qoy enməsin çən,
Qoy baxıb üzünə sevinsin Vətən,
Sil göz yaşlarını, şəhid anası.

Göyləri titrədir ahı-naləsi,
Ana layla deyir qəbir daşına.
Hər gün qucaqlayıb soyuq məzarı,
Sanki gəlib keçir beşik başına,
Həzin layla çalır qəbir daşına.

Oğullar içində gəzir oğlunu,
Güc verir gözünün həsrət yaşına.
O qədər sözü var kimə desin ki,
Dərdini söyləyir məzar daşına,
Ana sığal çəkir qəbir daşına.

Gündə bir arzusun söyləyir ona:
- Axı heç keçmədin bəy otağına.
Xonçanı tutmadım, xına yaxmadım,
Gülüzlü gəlinimin əl-ayağına.
Ana gileylənir qəbir daşına.

Göylərə yalvarır məni də apar,
Sözümü deməyə çatım taxtına.
Göylərdən səs gəlir sənin oğlunun
Şəhid ucalığı düşüb baxtına.

Ana layla deyir şəhid oğluna.
Oğlunun qəbrinin üstünə gedən,
Ananın harayı, dərdin səsidir.
Tanrı dərgahında uca sayılan,
Oğlunun yetdiyi şəhid zirvəsi,
Ananın yeganə təsəllisidir.

# TÜRKAY Aylıq Ədəbiyyat Dərgisi . 2. YIL FİHRİSTİ

## 01 Yanvar 2023-01 Dekabr 2024


Adilə Nəzər /13/ Günəş, Ay və Mən/ 3/15/Al Mənim Ürəyimi/4/17/ Həyat Gözəldir/17/22/Xəyallar/8 Elə Bir Güzgü ki/24/ 18

Arazgül Rejepova /13/Kadın / 23

Arzu Hüseyn /13/ Sənsizlik/20

Arzu Nehrəmli /18/ Gəlir/19/20/Anamın Xoşuna Gələn Günlərdə/4/22/Gəlir/9/24/Yol Ayrıcı/13

Aygün Rəhimli Akbaba/13/ Men 12/17/Mən/5

Ayhan Haceroğlu/16/Kerkük'üm/4/19/Yoktu/3

Aysel Xanlarqızı Səfərli İnsan Adlı Oyuncağam/24/9

Ayşe Ünüvar/14/ İçiyle Yol Bulanlardan Ol/ 22/19/ Üç Zaman/6/21/Siyaha Yakın Mor Bir Cümle/ 20/15/İçiyle Yol Bulanlardan/22

Banu Musayeva /17/Bölməyin/16 /19/Sən /12/15/ Hardasın/16Şeir Pərisi/24/8

Bənövşə Mahmudqızı /13/ Yenə Kimdir Darıxan/ 21/14/ Zamanım Var/4/16/ Haradaydın/23/17/ Yenə Kimdir Darıxan/15/19/Aşk Kadın/5 /22/Kimsəsiz/7Zamanım Var/24/12

Beyhan Gözükara /14/Anılarım/6/15/ Canın Sağ Olsun/ 5/18/ Tükendim/21/20/Anılarım 11 Döndüm Deliye /24/14

Dilan Keleş/Şirin Şirin Değil Artık/13

Dilarə Adilgil /16/Diş Ağrısı/13/20/Bağda/5

Eda Tosun/18/ Ben de Bilirdim / 23

Eluca Atali/15/Əldən Başlayır Düşüncənin Həbsi/ 6/17/ Yad Dildə Azadlıq Nəğməsi/13/19/Özümə Həsrət/ 23

Esmira Güneş/Pınar/14/9/17/ Səbəbi Sənsin / 21

Əzizə Ağahüseynqızı /20/Payızın Yanında Gözləmək Olmur/24/22/Bir Yarpaq Ağlayır / 10 Bir Misra Söz/24/10

Fatma Özger Bilgiç/13/Bir Dinlesen/9/15/Ey Sevgilim/14 /16/Zalim/24/17/ Son Nefesteyim/20/18 /Ben Anadolu'yum / 24/19/Kendini Toparla/24/22/Rabbim/11

Firuzə Məmmədli /16/Kimimsən Mənim / 6

Go'zal Ismatova /14/ Taqdır Azal / 23

Günel Natiq /16/ İki Simvol – Bal və Qarışqa Araşdırma / 17

Gülay Sormageç / Gözlerim Islak/24/7

Halise Tekbaş/14/Çok Özledim/11/15/Çok Özledim /7/17/ Hanı Çok Seviyordu/6

Həvva Nazim/20/Gördüm/20/21/Olmaz, Olmaz /9 /23/Daha/12

İlâf Köprülü /14/Hatıramdaki Bayram / 12

İlahə Bayundur/14/Niye Gelmedin?/15/15/ Niye Gelmedin?/ 9

İlahə İbrahimi Fərd/14/Yarpaq/ 10/15/ Yarpaq/15

İnci Okumuş/17/Hasretin Yaktığı Yerde İstanbul/ 4/19/Göğün ve Kalbin Söylemleri / 13/20/Kalem Geceye Şiir Fısılda Kalbim /24/11 Yarası 14/16/İstanbul Şiirleri/1/9/22/ Şairin Nesi Var? / 6

Kadriye Kırdök/ 13/ Eksik Dilek/ 17/16/Meçhul Yolcu/12

Lalə İsmayıl /23/Apar Zəngilana Məni/9

Leyla Şah / Sənsizliyin Dadı /24/6

Liya Russ /21/Qadın və Kişi Münasibətləri/8

Lutviyyə Əsgərzadə /14/Külləmi Oynayırsan/8/19/ Kiçik Dünyanin Böyük Həqiqətləri 15/20/Mehmet Ömer Kazancı Şiirinde Kerkük/16/17/ Ülviyyə Həmzəyeva Sənətində Rənglərin Mozaikası/8/18/Məhmət Ömər Kazançı Şeirində Savaşın Poetik İfadəsi/11/21/Ruhun Dönüşü vəya Bir Bədəndə İki Ruh/14 Əziz Qadınlar!/24/3

Mahirə Nağıqızı /14/ Qayada Bitən Çiçək/3/15/ Tərpədər/3/20/Məni Qınama/3/22/Məni Qınama/3

Maşide Aydoğan Dinçer/15/Gel Anne/23

Mələk İsmayıl /14/ Ay Şeir/19 /15/Ay Şeir / 19

Meryem Küçük/14/Kadın ve Kilit/5/16/Baharaylası/10/17/Mavisi Yasaklanmış Çocuk/24/19/Sevmeyi Buyurmuş Gözlerin/ 9 /22/Hasretimde Sığ Telaşlar/24/23/ Rüzgârın Yaprakla Vuslatı/24 Güneşe Çiçek Açıyorduk/24/4

Mətanət Hüseynxanqızı/14/ Nəğmələşər Bu Dünya/24 /15/Nəğmələşər Bu Dünya/24/18/ Payız Yarpağı/17/20/Nəğmələşər Bu Dünya/10/22/Çiçəklər Əsir/16

Mina Rəşid /22/Adam İstəsə/21/20/Güneş Yavrum/13/23/Yaxşılıq / 21

Minirə Dadaşqızı/18/Türkün Uca Bayrağı/16

Narıngül Nadir / Vağzal/24/5

Nazile Gültac/20/Yoktur/9/22/Bana Bir Söz Söyle/5 Suya Yazılan Sevda/24/23

Nazilə M. Zəfərli /14/Döyüşlərdə Zəfər Çalın / 7

Nazira Boymurodova /22/Sen Kimlerle Geziyordun?/23 /23/Sen Ölmedin, Ben Öldüm Baba/15 Güler Yaşarım!/24/20

Nazlı Çelebi/16/"Doğma Günahlar" Romanından Bir Parça/22
Nəcibə İlkin/13/ Bütöv Azərbaycanam/8/18/Bütöv Azərbaycanam/9/21/Azərbaycan Əsgəri/3
Nəzakət Məmmədli /16/Qar Yağı/8/22/Mən Zabit Anasıyam/15/23/Vətən/3 Şəhid Anası/24/24
Nihâl Mirdoğan/14/Kerkük/14/15/Azizim/8/17/ Gerekir/3/18/Kabulümdür/22/19/Türk Evladı/21 /22/Bakın Hâlime/ 4
Nurkan Gökdemir/16/ Sınandı Aşk/7/19/Cevap / Sır/8/23/Sır/Aşk/11
Nüşabə Məmmədli/Müşgənbər Ətirli Ölüm/13/13
Ramilə Əliyeva/Şəhi/8
Rânâ İslam Değirmenci/13/ Gün Doğmadan Ay Balam -4-/5, 15/Şiir Kanayan Yüreklerin Resmidir/10 /23/ Ben Hep 'Birbaşınalık'ı Sevdim/22
Samirə Sahib /18/ İmtahanım/3/20/Yaz Gətirdin/21 /15/Sən Mənim Duamsan/ 20
Səhər Xiyavi/13/Payız/ 11
Səidə Əliyeva /21/Ürək/24/23/Alın Yazısı/10 Muğam Sehrində/24/19
Səlbi Baxış /18/ "Ay can" Deyənim/7
Semengül Gafarova/16/ Şairlər Həssas Olur/ 15
Səringül Sadə /21/İnanın Mənə/23
Sevinc Azadlı 18/ Darıxır/5 /21/Sevinc Azadlı/ 21/23/Kəlağayım / 16
Sevinc Həmzəyeva/18/İstəmirəm Yerlə Səma Mənim Olsun/10
Sevinç Qəmberli /22/"Hədəfə Vasitə Qadın", yaxud "Satılmayan Mənlik" / 17/23/Ən Qorxulu Düşmən, yaxud "Fivin Mübarizəsi"/18"Çılpaq və yalnız" yaxud "Göy Adamı ilə Mükalimə"/24/16
Sona İntizar /19/Anladım Bugün /20/21/Sevdiyim! /22
Songül Özel/18/Yürek Sızım/6/21/Yürek Sızım 10
Sündüs Arslan/18/Şebingülü/4 Akça/19/ Sesin Kaynağı/14
Şahnaz Şahin/13/İki Şəkil/ 4/16/Buğda Adam/21/18/Sənin Üçün/20/21/Məni Soruşmusan/13/23/ Bu Dünya/13
Şerife Sönmez/18/Hasretlik İşi /15
Taman Yaralı/23/Qarabağ Azərbaycandı / 7
Tamara Sadıq /13/ Bayatılar/22
Tamella Şuşalı /19/İstərəm / 22 /21/Xoşbəxt İdik, Əzizim/7
Təbəssüm Rrzazadə- Şiddəti /22/Məndə/13
Telli Pənahqızı/16/ İlahi, Yer də, Göydə Sənindir /5/17/ Doğmalar, Yadlar/7
Təranə Arifqızı/16/Müharibə / 20/20/Ne Yazım/ 22/22/Qarabağım/12/23/Qarabağı Ürəyimdə Gətirmişəm/8
Təranə Məhəmmədqızı /13/Başım Üstə Allah Var /15/19/Paramparça/7
Təranə Turan Rəhimli/16/Elə Susdum, Daş Bildilər /3/17/Sən Mənim Şəklimi Çəkəbilməzsən/14
Tezay Tezcan Akkurt/22/Göğe Vurgun İnsan/22
Vüsalə Vətənxan Mehri /15/Sənin Eşqinlə Saraldım /18 /17/Getdin/22/21/Olmaz/4 23/ Bilməzəm / 17/ Getdin/24/15
Xatirə Səfər /16/ Gece Gözlüm / 16
Yasemin Kuloğlu/13/ Kadayıftan Nağmeler / 16 /15/Kaparo/12/20/Yağmurdan Önce/12/21/Yunus Sofrası / 6 /22/Karton Bardakta Aşk/14
Zəhra Fərdi Saçlı / Yağmur / 17
Zəhra Həsimova Elman/14/Afaq Məsud'un Hekayələrində Ekzistensializm / 16
Zemfira Məhərrəmli /16/Sənə Yanan Varsa /14 18/On İki Yaşın Sevinci / 18/19/On İki Yaşın Sevici / 10/23/ Şuşanı Aldıq Şuşa Azaddır / 5 Yuxunu Suya Danış/24/21
Zərəngiz Dəmirçi Qayalı/16/ Qarşıla / 11/17/ Mizan- Terazi/23/19/Dünya Mənim Evim/4/21/Türkəm Mən11/23/Şuşam/6
Zeynep Keskin /19/Güne Dair 11/21/Filistin Bizimdir Sevdiğim / 12/23/Senden Beridir / 14
Ziba Sevindik /13/ Gəlmədin / 24 /21/Gəlmədin/5